| | |
|---|---|
| “Dövlət qeydiyyatına alınmışdır” | “Təsdiq edilmişdir” |
| Azərbaycan Respublikasının<br>Ədliyyə Nazirliyi<br>Qeydiyyat N 2657 | Azərbaycan Respublikası<br>Mərkəzi Bankının İdarə Heyəti<br>Protokol N 03 |
| “08 ” fevral 2001-ci il | “ 31 ” yanvar 2001-ci il |
| Nazir _____________ F.F.Məmmədov | İdarə Heyətinin Sədri __________ E.S.Rüstəmov |

# AZƏRBAYCAN RESPUBLİKASI MÜVƏKKİL BANKLARININ AÇIQ VALYUTA MÖVQEYİ LİMİTLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ VƏ TƏNZİMLƏNMƏSİ

# Q A Y D A L A R I

**(23 yanvar 2007-ci il, 17 dekabr 2008-ci il və 15 aprel 2010-cu il tarixli əlavə və dəyişikliklərlə)**

**BAKI - 2001**

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", *"Banklar haqqında"* və "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası qanunlarına müvafiq surətdə işlənib hazırlanmışdır. Qaydalar müvəkkil banklar tərəfindən aparılan xarici valyuta əməliyyatları üzrə məzənnə risklərinin tənzimlənməsinə xidmət edir.

1.2. Bu Qaydaların məqsədləri üçün "kredit təşkilatı" və "bank" anlayışları "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu, "rezidentlər", "qeyri-rezidentlər", "xarici valyuta", "valyuta əməliyyatları" və "müvəkkil bank" anlayışları "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu, "bank metalları" anlayışı isə "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə şərh edilmiş mənada istifadə edilir.

1.3. Azərbaycan Respublikasının qanunvericulik aktları ilə təfsir edilmiş anlayışlardan əlavə, bu Qaydaların mətnində istifadə olunmuş digər termnlər aşağıdakı kimi anlaşılmalıdır:

1.3.1. Valyuta mövqeyi – müvəkkil bankların bu və ya digər valyutada (o cümlədən, bank metallarında) tələbləri və öhdəlikləridir.

1.3.2. Açıq valyuta mövqeyi – müvəkkil bankların ayrı-ayrı xarici valyutalarda tələblərinin və öhdəliklərinin (o cümlədən, hesablaşmaları tamamlanmamış əməliyyatlar üzrə balansdankənar tələblərin və öhdəliklərin) məbləğləri arasında, mübadilə məzənnəsinin əlverişsiz dəyişməsi şəraitində itkilər riski yaradan fərqdir.

1.3.3. Qısa açıq valyuta mövqeyi – hər hansı xarici valyutada *balans* və balansdankənar öhdəliklərin məbləğinin *balans* və balansdankənar tələlərin məbləğindən çox olduğu açıq valyuta mövqeyidir.

1.3.4. Uzun açıq valyuta mövqeyi - hər hansı xarici valyutada *balans* və balansdankənar tələblərin məbləğinin *balans* və balansdankənar öhdəliklərin məbləğindən çox olduğu açıq valyuta mövqeyidir.

1.3.5. Məcmu açıq valyuta mövqeyi - bütün uzun açıq valyuta mövqelərinin manat ekvivalentində məbləğlərinin cəmi ilə bütün qısa açıq valyuta

mövqelərinin manat ekvivalentində məbləğlərinin cəmi arasında mütləq kəmiyyətcə böyük olan göstəricidir. Məcmu açıq valyuta mövqeyi sərbəst dönərli valyutalar və qapalı valyutalar üzrə ayrılıqda hesablanır. Bu zaman açıq valyuta mövqeləri "plyus", qısa açıq valyuta mövqeləri isə "minus" işarəsi ilə işarələnir.

1.3.6. Qapalı valyuta mövqeyi - hər hansı xarici valyutada *balans* və balansdankənar tələblərinin məbləğinin *balans* və balansdankənar öhdəliklərin məbləğinə bərabər olduğu valyuta mövqeyidir.

1.3.7. Açıq valyuta mövqeyi limiti - açıq valyuta mövqeyinin manat ekvivalentinin bankın kapitalına nisbətinə Azərbaycan Respublikası Mərkəzi Bankı (bundan sonra mətn üzrə "Mərkəzi Bank") tərəfindən təyin edilən kəmiyyət məhdudiyyətidir.

1.3.8. Bankın kapitalı - Mərkəzi Bankın müəyyən etdiyi qaydada hesablanan məcmu kapitaldır.

1.3.9. Sərbəst dönərli valyutalar – bu Qaydalara 2 N-li əlavədə göstərilmiş valyutalardır.

1.3.10. Qapalı valyutalar - bu Qaydalara 2 N-li əlavədə göstərilmiş valyutalar istisna olmaqla yerdə qalan bütün xarici valyutalardır.

1.3.11. Günün yekun məzənnəsi - açıq valyuta mpvqeyinin hesablandığı tarixdə iş gününün yekununa Mərkəzi Bankın elan etmiş olduğu rəsmi məzənnə və ya rəsmi məzənnə üzrə hesablanmış çarpaz (kross) məzənnədir.

1.3.12. Struktur valyuta mövqeyi – inflyasiyanın və valyuta risklərinin bankın kapitalına təsirini minimallaşdırmaq məqsədilə qəbul edilmiş uzunmüddətli valyuta mövqeləridir. Bu cür mpvqeyə bankların xaricdə törəmə müəssisələr təsis etməsi, səhmlərini xarici valyutada emissiya edərək yerləşdirməsi və möhtəkirlik xarakterinə malik olmayan digər əməliyyatlar üzrə açılmış mövqeləri aid edilə bilər.

1.4. Açıq valyuta mövqeyinin hesablanması məqsədilə nəzərə alınan xarici valyutada, bank metallarında tələblər və öhdəliklər, eləcə də balansdankənar tələblər və öhdəliklər Mərkəzi Bank tərəfindən müəyyən edilir.

1.5. Açıq valyuta mövqeyinin hesablanması məqsədilə balansdankənar öhdəliklər xalis məbləğdə, yəni həmin valyutada hesab qalıqları və ya müddətli depozitlərlə təmin edilmiş hissəsi çıxılmaqla nəzərə alınır. Bu zaman depozit bank tərəfindən xüsusi hesabda bloklaşdırılmalıdır.

Bank tərəfindən verilmiş qarantiyalar üçüncü tərəf qismində çıxış edən banklardan alınmış qarantiyalarla təmin olunduqda, xalis məbləğdə (yəni həmin valyutada alınmış qarantiyalar çıxılmaqla) nəzərə alınır, bu şərtlə ki, üçünçü tərəf bank uzunmüddətli öhdəlikləri üzrə "Standard and Poors" beynəlxalq reytinq agentliyinin BBB-dən aşağı olmayan və ya digər beynəlxalq agentliklərinin (məsələn, Moody's, BankWatch və ya Fitch) həmin reytinqə uyğun reytinqinə malikdir.

1.6. *çıxarılmışdır.*

1.7. Açıq valyuta mövqeyi müvəkkil banklar tərəfindən icmal balans məlumatlarına əsasən günün yekun məzənnəsi üzrə gündəlik hesablanmalıdır.

## II. Açıq valyuta mövqeyi limitlərinin təyin edilməsi

2.1. Müvəkkil bankların valyuta-məzənnə risklərinin məhdudlaşdırılması məqsədilə Mərkəzi Bank aşağıda göstərilən mövqelər üzrə açıq valyuta mövqeyi limitlərini müəyyən edir:

2.1.1. Sərbəst dönərli valyutalar üzrə uzun açıq valyuta mövqeyi limiti;

2.1.2. Sərbəst dönərli valyutalar üzrə qısa açıq valyuta mövqeyi limiti;

2.1.3. Sərbəst dönərli valyutalar üzrə uzun məcmu açıq valyuta mövqeyi limiti;

2.1.4. Sərbəst dönərli valyutalar üzrə qısa məcmu açıq valyuta mövqeyi limiti

2.1.5. Qapalı valyutalar üzrə uzun açıq valyuta mövqeyi limiti;

2.1.6. Qapalı valyutalar üzrə qısa açıq valyuta mövqeyi limiti;

2.1.7. Qapalı valyutalar üzrə uzun məcmu açıq valyuta mövqeyi limiti;

2.1.8. Qapalı valyutalar üzrə qısa məcmu açıq valyuta mövqeyi limiti;

2.1.9. Bank metalları üzrə uzun məcmu açıq valyuta mövqeyi limiti;

2.1.10. Bank metalları üzrə qısa məcmu açıq valyuta mövqeyi limiti.

2.2. Müvəkkil bankların açıq valyuta mövqeyi limitlərinin həddi Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən olunur.

2.3. Mərkəzi Bank tərəfindən müəyyən edilmiş açıq valyuta mövqeyi limitləri yalnız əməliyyat gününün yekun icmal balansının nəticələrinə şamil edilir. Bankların əməliyyat günü ərzində açdıqları valyuta mövqeləri Mərkəzi Bank tərəfindən tənzimlənmir.

## III. Struktur valyuta mövqeyinin idarə olunması

3.1. Açıq valyuta mövqeyi hesablanarkən banklar, Mərkəzi Bankla qabaqcadan razılaşdırma şərtilə, struktur valyuta mövqelərini nəzərə almaya bilər.

3.2. Struktur valyuta mövqeyinin açıq valyuta mövqeyinin hesablamalarında nəzərə alınmaması üçün aşağıdakı şərtlərə əməl edilməlidir:

i. valyuta mövqeyinin uzun müddətə və möhtəkirlik məqsədləri olmadan qəbul edilməsi əsaslandırılmalıdır;

ii. valyuta mövqeyi bank kapitalının qorunması məqsədilə qəbul edilməlidir;

iii. struktur valyuta mövqeyi üzrə müstəsna hallar (onun hesablamalarda nəzərə alınmaması nəzərdə tutulur) ardıcıl tətbiq edilməli və bu mövqenin mövcud oilduğu bütün müddət ərzində dəyişilməz qalmalıdır.

3.3. Struktur valyuta mövqeyi üzrə müstəsna halların razılaşdırılması üçün banklar Mərkəzi Banka rəsmi əsaslandırılmış vəsatət təqdim etməlidir.

3.4. Mərkəzi Bank 10 iş günü ərzində vəsatətləri təhlil edərək struktur valyuta mövqeyinə dair qərarı barədə banklara rəsmi cavab verməlidir.

## İV. Müvəkkil bankların açıq valyuta mövqeyinə dair hesabatı

4.1. Müvəkkil banklar bu Qaydalara 1 N-li əlavədə göstərilmiş formada açıq valyuta mövqeyinə dair hesabatlar tərtib edərək Mərkəzi Banka təqdim etməlidirlər.

4.2. Hesabatlara həm ölkə daxilində, həm də xaricdə yerləşən filiallar üzrə icmal məlumatlar daxil edilməlidir. Azərbaycan Respublikası ərazisindən kənarda filiala malik olan banklar, paralel olaraq yalnız ölkə daxilində fəaliyyət göstərən struktur vahidləri üzrə məlumatları əks etdirən identik hesabat formaları da tərtib edərək Mərkəzi Banka təqdim etməlidir.

4.3. Açıq valyuta mövqeyinə dair günlər üzrə tərtib olunmuş həftəlik hesabatlar hesabat həftəsindən sonrakı ilk iş günü Mərkəzi Banka təqdim edilməlidir.

## V. Açıq valyuta mövqeyi limitlərinin və hesabatların təqdim olıunması qaydalarının pozulmasına görə müvəkkil bankların məsuliyyəti

5.1. Bu Qaydaların tələblərini pozan banklar və bank inzibatçıları qanunvericiliyə müvafiq qaydada məsuliyyət daşıyırlar.

5.2. *çıxarılmışdır.*

5.3. *çıxarılmışdır.*

## 6. Yekun müddəalar

6.1. Bu Qaydalar qüvvəyə mindiyi vaxtdan Mərkəzi Bankın 28 oktyabr 1996-cı il tarixli 64 N-li “Azərbaycan Respublikası ərazisində müvəkkil bankların açıq valyuta mövqeyi üzrə limitlərin müəyyən edilməsi Qaydaları”, 28 noyabar 1998-ci il tarixli 116 N-li “Azərbaycan Respublikası ərazisində müvəkkil bankların açıq valyuta mövqeyi üzrə limitlərin müəyyən edilməsi Qaydalarına əlavə və dəyişikliklər haqqında” təlimat göstərişləri, habelə 29 dekabr 1998-ci il tarixli 05/05-1319 N-li və 22 noyabr 1999-cu il tarixli 05/05-1358 N-li məktubları qüvvəsini itirmiş hesab edilir.

6.2. Bu Qaydalar 22 fevral 2001-ci il tarixindən qüvvəyə minir.

Azərbaycan Respublikası müvəkkil banklarının
açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və
tənzimlənməsi Qaydalarına Əlavə 1

## Açıq valyuta mövqeyinə dair

## H E S A B A T
## (“___” ___________ 20 -ci il)

**Bankın adı** ________________________ **Məsul şəxs:** ___________________________ **Telefon:** ___________________________

| Valyuta | AMB məzənnəsi | Tələblər (valyutada) | | | Öhdəliklər (valyutada) | | | Manat ekvivalentində | | Açıq valyuta mövqeyi (AVM) | | | | AVM əmsalı % |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | Uzun | | Qısa | | |
| | | Balans üzrə | Balansdan kənar | Cəmi | Balans üzrə | Balansdan kənar | Cəmi | Cəmi tələblər | Cəmi öhdəliklər | Valyuta | AZN | Valyuta | AZN | |
| **USD** | | | | | | | | | | | | | | |
| **EURO** | | | | | | | | | | | | | | |
| **GBR** | | | | | | | | | | | | | | |
| **JPY** | | | | | | | | | | | | | | |
| **RUR** | | | | | | | | | | | | | | |
| **CƏMİ** | | | | | | | | SDV-lər üzrə | | Man. | | Man. | | - |
| | | | | | | | | Digər valyutalar | | Man. | | Man. | | - |
| | | | | | | | | Qiymətli metallar | | Man. | | Man. | | - |
| **Hesabat tarixinə bankın kapitalı ________________________ manat təşkil edir.** | | | | | | | | **SDV üzrə məcmu AVM** | | | | | | |
| **Qeyd:** *(Struktur valyuta mövqeyi barədə məlumat)* | | | | | | | | **Qapalı valyuta üzrə məcmu AVM** | | | | | | |

Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi Qaydalarına

Əlavə 2

**"Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi Qaydaları"nın məqsədləri üçün istifadə olunan sərbəst dönərli valyutalar**

"Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi Qaydaları"nın məqsədləri üçün sərbəst dönərli valyutalar dedikdə, aşağıdakı ölkələrin valyutaları nəzərdə tutulur:

| **S/N** | Emitent | Valyutanın adı | İSO kodu |
|---|---|---|---|
| 1. | Amerika Birləşmiş Ştataları | ABŞ dolları | USD |
| 2. | Avropa İttifaqı | Avro və ona fiks olunmuş məzənnə ilə bağlı valyutalar | EUR |
| 3. | Avstraliya | Avstraliya dolları | AUD |
| 4. | Kanada | Kanada dolları | CAD |
| 5. | Danimarka | Danimarka kronu | DKK |
| 6. | *çıxarılmışdır* | *çıxarılmışdır* | *çıxarılmışdır* |
| 7. | İslandiya | İslandiya kronu | ISK |
| 8. | Yaponiya | Yen | JPY |
| 9. | Yeni Zenlandiya | Yeni Zenlandiya dolları | NZD |
| 10. | Norveç | Norveç kronu | NOK |
| 11. | İsveç | İsveç kronu | SEK |
| 12. | İsveçrə | İsveçrə frankı | CHF |
| 13. | Böyük Britaniya Birləşmiş Krallığı | Funt-sterlinq | GBP |
| 14. | Beynəlxalq Valyuta Fondu | Xüsusi borcalma Hüquqları | XDR |